Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 41 (966) 09 oktyabr 2019-cu il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# İsa HƏBİBBƏYLİ - 70

# SÖZÜN HÜNƏR YOLUNDA İNAM IŞIQ EVİDİR, SƏNƏTƏ SEVGİ VARSA, KÖNÜL AŞİQ EVİDİR




*Sözə, Vətənə, insanlara...*

## SEVGİ DOLU BİR KÖNÜL

Akademik İsa Həbibbəylinin 70 yaşı tamam olur...

Onun elmimizin, elmi düşüncəmizin sağlam yönümdə, xüsusi ilə ədəbiyyatşünaslıq və dilçilik sahəsinin və bütövlükdə, humanitar sahənin ədalətlə idarə olunmasında və istiqamətlənməsində müstəsna xidmətləri var...

Yəqin ki, onun həm ictimai-siyasi fəaliyyətini, həm tədqiqatçılıq işini, həm də elm sahəsindəki təşkilatçılığını xarakterizə edən çoxlu faktları sadalamaq olar. Ancaq buna lüzum görmürəm, çünki İsa Həbibbəyli təbiət etibarilə demokratik insandır. Mənəvi sərhədləri geniş olduğu kimi, həm də insanların üzünə açıqdır. Yaxşı tanıdığı hər hansı bir şəxslə görüşündə göstərdiyi münasibəti, tanımadığı və yaxud ilk dəfə qarşılaşdığı bir kimsədən də əsirgəmir. Zənnimcə, onun xalq arasında, cəmiyyət içində yüksək reytinqinin əsas qaynağı da elə budur, insanlara qarşı mehribanlığı, səmimiyyəti, müraciət edənin ən darıxdırıcı söhbətini belə təmkinlə dinləməsi, ümumiyyətlə, akademik İsa Həbibbəylinin dinləmə mədəniyyəti insanşünaslığın tədqiqat obyekti ola bilər. Diqqətlə dinləyir, məsələnin aydın olmayan tərəflərinə dair suallar verir, mahiyyəti anlamaq üçün qaneedici cavablar almağa çalışır. Yalnız bundan sonra imkan daxilində müraciət edənə köməyini əsirgəmir, hətta kömək eləmək onun imkanları xaricində olanda belə yaxasını kənara çəkmir. Doğru-dürüst məsləhət verməklə şəxsi əsas məqsədinə yetmək üçün istiqamətləndirir.

İnsanları doğru-dürüst tərəfə yönəltməyin özü cəmiyyətə, insanlara doğmalıqdan irəli gələ bilər. Cəmiyyətə yad olan insan ayrılıqda hər hansı bir fərdə də yaddır.

Onun elmi axtarışları yetmişdən çox kitabında cəmlənib. Bu əsərlər onun elm sahəsindəki fəaliyyətinin qlobal düşüncəyə əsaslandığını göstərir.

İsa Həbibbəyli qaynar elmi, ədəbi mühitin içərisindədir. Ən mübahisəli məsələlərə cəsarətlə müdaxilə etməkdən çəkinmir, çünki zəngin, elmi bazası var. Söz meydanı ulu Nizamidən üzü bəri həmişə hünər yolu sanılıb. Bu hünər yolunda insanın əzmini qoruyan, onun yoluna işıq salan inamıdır - nikbin gələcəyə olan inamı.

Akademik İsa Həbibbəylidə sənətə sonsuz sevgi hissi var. Onu söz, sənət adına hər hansı bir tədbirdə görmək olar, özü də ürək dolusu danışmaq imkanında. Bütün çıxışlarının məzmunu əzəli və axırı söz boyu qranit məntiqlə qırılmazlıq yaradır.

Könül aşiq evidir deyirik. İsa Həbibbəylidə sözə vurğunluq həqiqətən yüksək eşq mərtəbəsindədir. Aşiqlər isə heç kimsədən sevgi payını əsirgəməz. Bəlkə, elə buna görə onu hər kəs özünə doğma bilir. Təbiət etibarilə qərəzsiz və kinsiz adamdır. Elmi mübahisələrdə tezislərini qəbul etməyənlərə də yüksək hörmətlə yanaşır.

Elmimizin, mənəvi həyatımızın nəhəng sütunlarından biri İsa Həbibbəylidir.

...Bu, bizim İsa müəllimdir. 70 illik yubileyini təbrik etdiyimiz müdrik, həmişə qayğılı və qayğıkeş dostumuz.

*Əli Rza XSSLSSFLİ*
*08.10.2019*